UOT 37.01

***Fəridə İlqar qızı Səfərova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TARİX TƏLİMİNDƏ ŞƏXSİYYƏTƏ YÖNƏLMİŞ TƏLİM PRİNSİPİNDƏN İSTİFADƏ

***Фарида Ильгар гызы Сафарова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ИСПОЛЬЗОВАНИЕ ЛИЧНОСТНО ОРИЕНТИРОВАННЫХ ПРИНЦИПОВ ОБУЧЕНИЯ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ

***Farida Ilgar Safarova***
*Azerbaijan State Pedagogical University*

# THE USE OF STUDENT-CENTERED LEARNİNG PRİNCİPLES İN TEACHİNG HİSTORY

**Xülasə:** Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Təlim-tərbiyə prosesində şəxsiyyətyönlülüyün inkişafı, metod və üsulları göstərilib. Problemin işlənmə səviyyəsinə münasibət bildirilib, tarix təlimində şəxsiyyətlə bağlı mövzuların imkanları araşdırılıb.
***Açar sözlər:*** *şəxsiyyət, təlim, inkişaf, subyekt, şəxsiyyətyönlü anlayış*

**Резюме:** В статье обоснована актуальность темы. Представлены методы и приемы развития личностно ориентированности в учебном процессе. Выражено отношение к уровню разработанности проблемы. Исследованы возможности тем, связанные с изучением личности при обучении истории.
***Ключевые слова:*** *личность, обучение, развитие, субъект, понятие ориентированности*

**Summary:** The relevance of the subject is justified in the article. Methods and methods of personality development are presented in the educational process. The attitude of the problem to the level of development has been studied and the subject of the course has been investigated and the subject of the lesson has been given.
***Key words:*** *personality, learning, development, subject, identity-oriented concept*

Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır: "Azərbaycan Respublikasında təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə, demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir" (1, s.15).

XXI əsr azad və müstəqil düşünməyə, geniş dünyagörüşə malik insanların formalaşmasını tələb edir. Deməli, yaşadığımız əsrin tələblərinin ödənilməsi təhsildən keçir. Odur ki, təhsilalanların fəallaşması üçün, ilk növbədə, onun bir şəxsiyyət kimi təlim prosesinin mərkəzi obyekti kimi çıxış etməsi vacibdir. Tarix təlimi şagirdlərin maraq və tələbatına, onun bilik səviyyəsinə, imkan və qabiliyyətlərinə yönəlməlidir. Müəllim tərəfindən şagirdə şəxsiyyət kimi yanaşılmalı, onun fərdi cəhətləri nəzərə alınmalı və ona hörmət əsasında münasibət göstərilməlidir.

Əvvəla onu qeyd etməliyik ki, müasir təlimin 7 prinsipi vardır. Bunlar aşağıdakılardır:

1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi.
2. Fəal idrak prinsipi.
3. İnkişafedici təlim prinsipi.
4. Qabaqlayıcı təlim prinsipi.
5. Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi.
6. Əməkdaşlıq prinsipi.
7. Dialoji təlim prinsipi.

Biz məqalədə tarix təlimində şəxsiyyətə yönəlmiş təlim prinsipindən istifadənin imkanlarını araşdıracağıq.

"Şəxsiyyət" sözü ərəb sözündən götürülmüş, konkret şəxsi, simanı bildirir. Şəxsiyyət - müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət göstərərək, gerçəkliyi dərk edib müəyyən istiqamətdə hadisələri dəyişdirə bilən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır. İnsanlar gözlərinin rənginə, səslərinin tembrinə, barmaq izlərinə və s. fərqləndikləri kimi şəxsiyyətlərinin xarakteristikalarına görə də bir-birlərindən fərqlənirlər. Şəxsiyyət problemi ilə yaş psixologiyası, pedaqoji psixologiya, fəlsəfə, etika, sosiologiya kimi elmlər məşğul olur (2, s. 137, 138).

Şəxsiyyət anlayışı olduqca mürəkkəb bir anlayışdır. Hal-hazırda, müasir dövrdə bu problem öz aktuallığını saxlayır. Şəxsiyyət problemi, onun müxtəlif yönlərdən öyrənilməsi hələ antik filosofların marağına səbəb olmuş və Sokrat, Platon, Aristotel şəxsiyyətin inkişafı və formalaşması haqqında dəyərli fikirlər söyləmişlər. Şəxsiyyət problemi, onun inkişafı, tərbiyəsi və qarşılıqlı əlaqələri Şərq fəlsəfəsinin, pedaqoji, psixoloji fikrinin də həmişə hədəfi olmuş, bu istiqamətdə Nizami Gəncəvinin, Füzulinin, Nəsiminin, Nəsirəddin Tusinin, Əhvədinin, Sədi Şirazinin, İmam Qəzzalinin, Cəlaləddin Ruminin və başqalarının dəyərli fikirləri, şəxsiyyətin tərbiyəsinə dair qiymətli öyüd-nəsihətləri məlumdur.

Müasir dövrdə bu problemlə bağlı bir çox alim və metodistlər dəyərli araşdırmalar aparmışlar. Bunlara R.İ. Əliyevin "Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması", B.H. Əliyevin "Şəxsiyyət probleminə yeni baxış", B.H. Əliyevin "Təhsildə şəxsiyyət problemi" və bir çox tədqiqatları misal göstərmək olar.

XX əsrin sonları, XXI əsrin əvvəllərinədək Azərbaycan Respublikasında ənənəvi təhsil sistemi mövcud olmuşdur. Müstəqillik qazandıqdan sonra respublikamızda təhsil sahəsində baş verən bir çox yeniliklər nəticəsində ənənəvi təhsil sistemi də öz yerini müasir şəxsiyyətyönlü təhsil sisteminə verməyə başladı. Şəxsiyyətin müasir həyata hazırlaşmasına xidmət edən kurikulum 2007-2008-ci tədris ilindən respublikanın orta ümumtəhsil məktəblərində tətbiq edilməyə başlanılmışdır. Müasir fənn kurikulumlarının səciyyəvi cəhətlərinə onun şəxsiyyətyönlülük, nəticəyönlülük, inteqrativlik, şagirdyönlü olması daxildir. Təhsil kurikulumları fənyönlü və şəxsiyyətyönlü olmaqla iki yerə ayrılır. Şəxsiyyətyönlü kurikulumlarda bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilir. Tədris prosesində şagirdə gələcək həyat fəaliyyətində lazım olacaq praktik bacarıq və vərdişlər aşılanır. Ən önəmlisi isə, şagird şəxsiyyətinin formalaşması üçün böyük önəm kəsb edir. Azərbaycan Respublikasında da məhz təhsilin əsas başlıca məqsədi şəxsiyyət yetişdirməkdir. Şəxsiyyətyönlü təhsildə şagird təhsil prosesinin mərkəzində dayanır. Bütün tədris və təlim fəaliyyəti təhsilalanların mənafeyinə, şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir. Başqa sözlə, şəxsiyyətin formalaşması təhsilin ana xəttidir. Tədris prosesində şəxsiyyətyönlü təlim prinsipi "subyekt-obyekt" münasibətlərindən "subyekt-subyekt" münasibətlərinə keçidin təmin edilməsi prosesində mühüm rol oynayır.

Psixoloqlar müəyyən etmişlər ki, insan bütün ömrü boyu qazandığı məlumatın təxminən 70%-ni 6 yaşa qədər əldə edir. Belə ki, məktəbəqədər dövrdə uşaq dünyanı bir tədqiqatçı kimi dərk edir; o, suallar verir, bu suallara cavab tapmaq üçün tədqiqatçı mövqeyi tutur, müxtəlif məlumat mənbələrindən istifadə edir. Birinci sinfə qəbul olarkən elə mühitə düşür ki, burada ona adət etdiyi metoddan əl çəkmək tələb olunur. Müəllim tələb edir ki, ona diqqətlə qulaq assın, dediyi məlumatları yadda saxlasın, bu məlumata aid olmayan sualları az versin. Beləliklə, nəticə etibarı ilə bu cür təhsil mühitinə düşən şagird tədqiqatçılıq mövqeyindən uzaqlaşır və təlim prosesində passiv mövqe tutur. Təhsildə tələbələrə şəxsiyyət kimi yanaşılmalıdır. Təlimdə şəxsiyətyönlülük prinsipinin reallaşması üçün şagird tədris prosesində fəal mövqe tutmalı, təlim prosesinin mərkəzi obyektinə çevrilməlidir (3, s. 360).

Şəxsiyyət necə formalaşır?

Razılaşmaq olar ki, hər bir insan fərd kimi dünyaya gəlir və şəxsiyyət kimi formalaşır. Şəxsiyyətin formalaşmasına bir çox amillər təsir göstərir. Burada ilk öncə genetik amillər, insanı əhatə edən ətraf mühit, təhsil vəziyyəti və s. amillərin mühüm rol oynadığını qeyd etmək lazımdır. Təhsilin forma və məzmunu, ümumi

sferası şəxsiyyətə təsir göstərməklə onun istiqamətlərini formalaşdırır.

Şəxsiyyəti mühit yetişdirir. Burada ailə mühiti və məktəb mühiti əvəzedilməz rol oynayır. Məktəbdə şəxsiyyəti müəllim yetişdirir. Həqiqətən də insanın bir şəxsiyyət kimi formalaşmasında müəllimlərin rolu əvəzedilməzdir. İnsan ömrünün 11 ili onun orta təhsil aldığı zamana təsadüf edir. Bu dövr insanın şəxsiyyət kimi formalaşması, onun özünü tanıması, arzularını, istəklərini və ideyalarını kəşf etməsi, gələcəyə dair planlar qurması, hansı sənət sahibi olacağını müəyyən etməsi, həyata və əmək fəaliyyətinə hazırlanması dövrüdür. K.D. Uşinski deyirdi: " Yalnız şəxsiyyət şəxsiyyəti müəyyən edə bilər və onu inkişaf etdirə bilər. Yalnız xarakterlə xarakter yaratmaq olar". Buradan çıxan nəticə odur ki, şagirdi yalnız hərtərəfli inkişaf etmiş müəllim yetişdirə bilər. Bu işdə müəllimin şəxsi siması, elmi-praktiki bilikləri, aydın nitqi, pedaqoji ustalığı mühüm rol oynayır. Müəllim həm də gözəl psixoloq olmalıdır. Hər bir şagirdinə fərdi yanaşmağı, onu kəşf etməyi, onun etimadını qazanmağı bilməlidir.

"Şəxsiyyətyönlü təlimin subyekt prinsipi əsasında qurulmasından bir sıra müddəalar çıxış edir: əvvəla, təlim materialı bütün şagirdlər üçün eyni ola bilməz. Şagirdə təlim materialı öyrənərkən, tapşırıq və çalışmaları həll edərkən onun subyektinə uyğun olanı seçmək imkanı verilməlidir. Şagirdə mətn, əsər haqqında rəy, münasibət verilməməlidir, o seçdiyi, oxuduğu, öyrəndiyi haqqında öz münasibətini ortaya qoymalıdır" (4, 2013, N5, s. 21-25).

Şagird şəxsiyyətinin inkişafında tarix fənni mühüm önəm kəsb edir. Məhz tarixin tədrisi zamanı tarixi şəxsiyyətlərin nümunəsində şagird şəxsiyyətinin formalaşdırılması müstəsna əhəmiyyətə malikdir. Ümumtəhsil məktəblərinin Azərbaycan tarixi dərslikləri və metodik vəsaitlərində məzmun xətləri, əsas və alt standartları əsas götürülməklə hazırlanmışdır. Beş məzmun xəttindən biri şəxsiyyəti əks etdirir. Tələb kimi şagirdlər dövri baxımından tarixi şəxsiyyətləri səciyyələndirməlidirlər.

Biz tarix kurslarında şəxsiyyətlə bağlı mövzuların imkanlarını araşdıraraq onların tədrisini xüsusiləndirmişik. Azərbaycan tarixinin tədrisində şagirdlərdə şəxsiyyətyönlülüyün inkişaf etdirilməsi ilə əlaqədar dərs nümunəsini nəzərdən keçirək.

**Mövzu:** Mərkəzləşmiş Vahid Azərbaycan Dövləti. (I dərs) - Şah İsmayıl Xətai.

**Məqsəd:** Mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılmasında Şah İsmayıl Xətainın fəaliyyətinin şagirdlər tərəfindən mənimsənilməsinə nail olmaq.

**İş forması:** Qruplarla iş.

**İş üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** dərslik, iş vərəqləri.

Dərsin gedişi:

**Motivasiya**

**Əqli hücum:** XV əsrin sonları, XVI əsrin əvvəlləri Azərbaycanda ictimai-siyasi vəziyyət necə idi?

Qoyulmuş sual şagirdlər tərəfindən müzakirə olunur. Müzakirə əsasında cavablar müəyyən edilir.

**Tədqiqat sualı:**

Şah İsmayıl Xətainin Azərbaycan tarixindəki rolu nədən ibarətdir?

Bundan sonra müəllim Səfəvilər dövlətinin yaranması, Şah İsmayılın fəaliyyəti haqqında qısa məlumat verir. Şagirdləri yeni mövzu barədə məlumatlandırır. Tədqiqat aparmaq üçün müəllim şagirdləri qruplara bölür və onlara tapşırıqlar yazılmış iş vərəqləri paylanılır. Şagirdlər onlara verilən vaxt ərzində Şah İsmayıl Xətainin fəaliyyətləri ilə bağlı suallara cavab axtarırlar.

**Məlumat mübadiləsi:**

Bu mərhələdə qruplar tapşırıq yerinə yetirildikdən sonra öz işlərini lövhədən asaraq təqdim edirlər, sonra müzakirələr başlayır.

**Məlumatın müzakirəsi:**

Əldə olunmuş məlumatların açıq müzakirəsinə başlanılır. Qruplar bir-birlərinin cavablarını dinləyir və lazım olduqda öz əlavələrini edirlər. Müzakirə diskussiya şəklində aparılır. Bununla da şagirdlərdə polemika mədəniyyəti inkişaf edir.

**Nəticənin çıxarılması və ümumiləşdirmə:**

Bütün cavablar dinlənildikdən sonra əldə edilmiş biliklər sistemləşdirilir.

**Yaradıcı tətbiqetmə:**

Müəllim tərəfindən şagirdlərə Şah İsmayıl Xətai haqqında esse yazılması tapşırılır.

**Mövzunun aktuallığı** təhsildə şəxsiyyətin inkişafı məsələləri qabaqcıl fikirli alim, metodist və

bir çox mütəfəkkirlərinin yaradıcılıqlarında həmişə diqqət mərkəzində olmuşdur. Lakin tarix təlimində şəxsiyyətə yönəlmiş təlim prinsipindən istifadə problemi bu vaxta qədər tədqiq olunmayıb.

**Nəticə** olaraq deyə bilərik ki, qabaqcıl fikirli, yüksək intellektə malik, dərin dünyagörüşlü gənclərin yetişdirilməsində təlim-tərbiyə prosesində şəxsiyyətyönlülüyün inkişaf etdirilməsi və tətbiqi böyük əhəmiyyətə malikdir. Tarix təlimində şəxsiyyətyönlülük prinsipindən səmərəli istifadə edilməsi təlimin keyfiyyətini artırır.

**Məqalənin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, əldə olunan nəticələrdən magistrantlar, tarixin tədrisi metodikası ilə məşğul olan mütəxəssislər istifadə edə biləcəklər. Eləcə də, əldə olunan nəticələr tarixin tədrisi metodikası elmini zənginləşdirəcək.

**Məqalənin praktik əhəmiyyəti** məqalənin məzmunundan ümumtəhsil məktəblərinin müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

## Ədəbiyyat:


1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
2. Seyidov S., Həmzəyev M.Ə. Psixologiya. Bakı: Azərnəşr, 2007.
3. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. Bakı, 2011.
4. Mənsimov S., Şəxsiyyətyönlülük pedaqoji anlayış kimi. Kurikulum, 2013, № 5


**E-mail**: feride_i_seferli@mail.ru

**Rəyçilər**:*ped.ü.elm.dok., prof.* **M.M. Əmirov**
*dos.* **A.Y. Piriyeva**
**Redaksiyaya daxil olub:** 16.10.2018